# İSTƏK BİLDİRMƏK



BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Azercell


Birgə və
Sağlam İB
“Autizm portalı”
BİRGƏ VƏ SAĞLAM
İCTİMAİ BİRLİYİ
Azercell

# İSTƏK BİLDİRMƏK



Mütəxəssislər danışmağın öyrənilmiş bir davranış olduğunu irəli sürür. Əgər danışsanız, danışdığınız şey bir növ təsdiq almış olar. Danışmağa başlamış bir uşaq, "Aaa" və ya "Ooo" daxil olmaq üzərə "Ma" və ya "Ba" kimi bir çox səsi asanlıqla çıxara biləcəkdir.

Ana və ataların çoxu, ilk olaraq "ana" və ya "ata" sözlərini eşitməyi dörd gözlə gözlədiyindən, bu çıxardığı səsləri mükafatlandırılır. Tək başına "a, e, o, ö" kimi səslər potensial bir "ana" səsindən daha çox diqqətə məruz qalmır, buna görə də mükafatlandırılmır. Əgər bir uşaq "ma" və ya " ba" səsi çıxarırsa, valideynlər çox xoşbəxt olar və uşağı diqqət yağışına tutarlar ( qıdıqlayar, qucaqlayar və ya süd verərlər). Tipik inkişaf göstərən uşaqlarda dil bu şəkildə formalaşmağa başlayır. İnkişaf geriliyi olan uşaqlar da dili eyni şəkildə öyrənirlər, lakin onların dil inkişafı daha yavaş olduğu üçün, öyrənmə daha çox və nəzərə çarpan mükafatlandırmalar ilə həyata keçir.

Yenə də biz sözlərə fokuslanırıq. İnkişaf geriliyi olan uşaqların valideynlərinə ən çox verilən sual: "Övladınız danışır ?" sualıdır. Cavablar " Heç danışmır"dan "Əlaqəsiz, amma yenə də bir neçə söz istifadə edir"ə qədər dəyişə bilir. Ancaq deyə biləcəyi bir sözü olmaq , sözləri effektiv bir şəkildə istifadə edə bilməkdən fərqlidir. Dörd yaşında bir uşaq, iki yaşında bir uşağın ifadəedici dil səviyyəsində və üç yaşında bir uşağın alıcı dil bacarıqlarına sahib ola bilərlər. Yenə də bu məlumatlar uşağın bacarıq səviyyəsini doğru bir şəkildə dəyərləndirməyə kifayət etməz. Uşağın nitq bacarıqlarını inkişaf etdirmək üçün daha çox məlumata ehtiyacınız olacaqdır. Övladınız sözləri nə məqsədlə istifadə edir? Nə zaman istifadə edir? İfadəedici dilə bir bütün olaraq baxmaq yerinə, onu istək bildirmək, bir şeyi adlandırmaq, sizi təqlid etmək, soruşduğunuz suala cavab vermək olacaq şəkildə daha kiçik hissələrə ayırmanız gərəkdir. Övladınızın dil proqramını planlaya bilməyiniz üçün bu bacarıqların hər birinni dəyərləndirməniz vacibdir. Bu kitabçada övladınızın istək bildirmə bacarığını dəyərləndirmə və onun tədrisi üzərində dayanılacaqdır.

# DƏYƏRLƏNDİRMƏ

Övladınız bir şey istədiyində və ya bir şeyə ehtiyacı olduğunda , bunu sizə necə bildirir? Əslində  bunu demək istəyirik : Övladınız istəklərini sizə necə deyir? İstək bildirmək ən önəmli davranışdır, çünki daima öncəsində  arzu edilən bir şey var və bu arzu, uşağın istədiyini əldə etməsiylə sonlanır. Uşaq peçenye istəyir (arzulayır) və sizə “ Peçenye götürə bilərəm?” deyə soruşaraq istəyini bildirir.

Bir şeyə qarşı duyulan arzu, ehtiyac artıqca artır. Əgər uşaq çips sevirsə, bunun üçün istək bildirir və çipsi əldə edərsə, sonda onu yeyir və dərhal ardından su  və ya portağal suyu istəyir. Çünki çips arzusunu qarşılamışdır, indi isə su və ya meyvə suyu arzulayır. Bu da istək bildirmək-də motivasiya dediyimiz arzulamağa bir nümunədir, yəni arzu, bir istəkdən öncə olmalıdır. Mükafatlandırılan hər davranış ya eyni səviyyədə davam edir, ya da artır. Belə olduqda uşaq istəyini bildirdikdən sonra dərhal sonra mükafatlandırılsa, gözləntiniz istək bildirmənin davam etməsi və ya artamasından yana olacaqdır. Övladınız “peçenye” dediyi zaman , peçenye əldə edəcəyini anlayacaqdır. Beləliklə ac olduğu zaman qəzəblənmək yerinə istəyini bildirmə ehtimalı artacaqdır, çünki istəyinin qarşılanmasının ən qısa yolu bu olacaqdır. İstək bildirmə bacarıqlarını qiymətləndirərkən, yaxın zamanda övladınızın – heç ipucu olmadan –göz önündən uzaq hər hansısa bir şeyi istəyib-istəmədiyinə baxın. Azyaşlı uşaqların əksəriyyətində istək bildirmək çox zəifdir, çox zaman da istədiyi şey göz önündə deyilsə... Buna görə də göz önündə olmayan əşyalar üçün etdiyi istək bildirmələrini yazmaq çox zamanınızı almayacaqdır.

Göz önündə olmayanlar üçün etdiyi bütün istək bildirmələrini qeydə aldıqca, bir sonraki mərhələniz  uşağınızın seçdiyi qida və ya oyuncaqlardan bir neçəsini əlinizin altında olmasıdır. Qarşılıq gözləmədən kiçik bir parça peçenye övladınıza verin və götürüb yeyəcək mi deyə müşa-hidə edin.

Əgər yesə, motivasiyasının güclü olduğunu anlamalısınız. Bu durumda bir parça peçenye daha alın və 5 saniyə uşağın sözü deyib-deməyəcəyini və ya işarə edib-etməyəcəyini görmək üçün gözləyin. Əgər “ peçenye” desə və ya işarət barmağıyla işarə etsə, bu “göz önündə olan şeylər üçün istək bildirmək” şəklində qeyd olunacaqdır. Əgər uşaq peçenye deməsə və ya onu işarə etməsə , ona 3 dəfə verbal model olun. Hər bir model arasında təqribən 1 saniyə gözləmə; “Peçenye” -1 saniyə gözləmə; “Peçenye”. Üç dəfə model olarkən, ikinci və üçüncü “peçenye” demələrinizdə peçenyeni uşağa azca yaxınlaşdırın. Əgər uşaq model olduqda peçenye yeməyə çalışırsa, dəyərləndirmə vərəqənizdə peçenyenin yanına “model olduqda göz önündə olan üçün istək bildirmə” deyə qeyd edin. Bu üsulu davam etdirərək, övladınızın istək bildirmək bacarığını tamamilə test edin.

Tipik inkişaf göstərən bir uşaq, fərqli bir çox mükafatı əldə etmək üçün bir gündə yüzlərlə istək bildirir, ardından “Hey, mənə baxın!” kimi diqqət çəkmək üçün və “Atam hardadır?” kimi məlumat toplamaq üçün istək bildirməyə keçir ki,  bu da ümumiyyətlə üç yaşa gəldiklərində qarşılaşdığımız mərhələdir. Buna görə də övladınız irəlidə “ istək  bildirmə canavarı” olmasa da, övladınızın istək  bildirmə siyahısı ən az bir səhifəni doldurana qədər dəyərləndirməyə və çalışmağa davam edin.

# TƏDRİS

Nitq təlimi haqqında yazılmış bəzi kitablarda əşyaları yüksək rəflərə qoymaq, rutinləri pozmaq, eyni sözü dəfələrlə təkrarlamaq kimi nümunələr vardır. Bu texnikalar bəzi uşaqlarda sehirli bir təsir yarada bilər. Söz bazası iki qat arta bilər və əşyaları daha çox istəməyə başlaya bilər. Bəzi loqopedlər, uşaqlara istəklərini ifadə etmələri öyrədildiyində onların daha tez öyrənib, daha yaxşı davrandıqlarını biləcək qədər geniş bir təcrübəyə sahib ola bilərlər, amma mühiti motivasiyaediciylə uyğunlaşdırmaq və ya tələbləri mərhələ-mərhələ təqdim etmək kimi mövzularda bir çoxunun əskiklikləri ola bilər.

Ümumiyyətlə terapistlər nitq seanslarına köpük kimi əyləncəli bir fəaliyyətlə başlayar və ardından uşağa daha çox köpük çıxartmağa çalışarlar. İstək bildirməyi öyrətmə şəkilləri çox zaman belə uğurlu strategiyalara əsaslansa da, hər zaman ardından mücərrəd qavramlara keçib bəli-xeyr suallarını cavablamağa və ya əvəzlik istifadə etməyə keçirlər. Uşaqlar, köpüklər və istək bildirməklə xoşbəxt olsalar da, bunun ötəsinə keçən zaman fərqli davranış göstərir və problemlər ortaya çıxır.

Bu hissədə daha öncə bildirildiyi kimi davranışın altında yatan səbəb motivasiyadır. Uşaq bir şey istəmək üçün motivasiyalı olmalıdır. Bu ya aclıq ya da başqa növ bir arzudur. Meyvə suyu arzulayan bir uşaq istək bildirir və onu əldə edir. İstək bildirmənin dərhal həyata keçən müsbət bir geri dönüşü var; uşaq istək bildirər və dərhal sonrasında mükafatlandırılır, yəni uşağın istədiyi əşya və ya fəaliyyət dərhal ona verilir.

Mütəxəssislərə görə problem davranışlar, demək olar ki hər dəfəsində istək bildirmədən, yəni ehtiyaclarını bildirmədəki çatışmazlıqdan qaynaqlanır.

Yeni doğulmuş uşaqları düşünək. Körpələr ağlamağı o qədər mükəmməl istifadə edirlər ki, valideynlər ac olduqlarındakı ağlamaqla, bezlərini dəyişdirmək gərəkdiyi ağlamaq arasındakı fərqi anladıqlarını deyirlər.

Ağlamaq yeni doğulanların ilk istək bildirməsidir və həyatda qalmaq üçün gərəklidir. Uşaqlar böyüyərkən, daha aydın tələbləri olur və istək bildirmək bacarıqları bu tələblərlə eyni səviyyədə inkişaf edir. Altı  ya da səkkiz aylıq bir uşaq qucağa alınmağı və ya meyvə suyu istəyə bilər və daha yeni sayıla biləcək bu kimi ehtiyacların qarşılanmasında bir ünsiyyət sistemi qurur. Tipik inkişaf göstərən bir uşaq, barmağıyla işarə etməyi, qolunu qaldırmağı və ya başqa cür bir jesti öyrənə bilər. Autizmli və ya digər inkişaf geriliyi olan uşaqlar bu cür jest bacarıqlarını inkişaf edtdirə bilmirlər, bu da autizmin gözə çarpan əlamətlərindən biridir: Uşağın 18 aylıq ikən işarə edə bilməməsi. Uşaq işarə edə bilmədiyi üçün ağlamasının davam etmə ehtimalı yüksəkdir. Bu halda ehtiyaclarını başqasına çatdıra bilməyən uşaqların ağlamağa davam etdiyi görünür və qəzəbləlenmələri artır.

Əgər uşağınıza ünsiyyət bacarıqlarını öyrətmək istəsəniz, ona necə istək bildirəcəyini öyrətməyiniz qazandıra biləcəyiniz ən təməl bacarıq olacaqdır. O halda işə başlamadan öncə güclü mükafatları seçin və çalışacağınız mühitin mükafatla eyniləşdiyindən əmin olun.
Bunu necə edəcəyiniz mövzusunda məlumata ehtiyacınız varsa, birinci kitabçanı yenidən oxuyun. Ayrıca, övladınızın müəyyən bir şeylərlə motivasiya olduğunu bilməlisiniz. Bunlar övladınızın masanın üzərində bir şeyə əl uzatması ( kreker və ya meyvə suyu kimi) və ya əlinizdən tutub sizi bir əşyaya və ya fəaliyyətə aparması kimi hərəkətlərlə özünü göstərər. Bəzi uşaqlar arzularını barmaqla işarə edərkən , bəzi uşaqlar istədikləri şeyi göstərmək üçün qeyri-müəyyən səslər çıxararlar.

Dörd yaşında və yeni diaqnoz almış Həmzə nümunəsinə baxaq. Valideynləri çox narahatdır, Həmzə bir neçə söz deyə bilir amma istədiyi şey gözünün önündə belə olsa da, heç nə üçün istək bildirə bilmir. Göz önündəki əşyalar üçün istək bildirmək, gözdən uzaq əşyalar və fəaliyyətlər üçün istək bildirməkdən daha asan olduğu üçün, öncə Həmzəyə göz önündə olan əşyalar üçün şifahi istək bildirməyə fokuslanacayıq. Həmzə top, kitab, yataq və təyyarə kimi bəzi əşyaları adlandıra bilir. Həmzənin ən efekktiv mükafatları: Çips, jelibon , meyvə suyu, su, şəkilli kitablar , videolar , yelləncəkdə yellənmək, kiçik batutda hoppanmaq və böyük aerobika topunun üstündə hoppanmaqdır. Ana-atası ona kiçik bir uşaq masası alıb qonaq otağındakı televizorun yanına qoydu və həftədə üç gün çalışması üçün ona az da olsa təcrübə sahibi olan bir terapist tutdu. Masaya oturmaq, terapisti və ya anası tərəfindən yönləndirildiyi halda Həmzənin heç diqqətini çəkmədi, hətta masaya getməyə müqavimət göstərdi. Yerdə pazl tamamlayır, maşınları sıraya düzür lakin o oynadığı zaman biri ona müdaxilə edərsə bunu xoşlamır. Həm anası, həm də terapisti ona istək bildirməyi öyrətmək üçün hazır olduqlarını düşünürlər. Doğrudur? Yanlışdır?

İstək bildirməyi öyrətməyə başlamadan öncə aşağıda bildirilən bir neçə mövzuya diqqət yetirmək gərəkdir. Hər şeydən öncə mühit, programın uğurlu olmasına yetəcək qədər mükafatlarla uyğunlaşdırılmamışdır. Əgər tələbləri tələsərək etməyə çalışsanız, övladınız baş verənlərə müsbət reaksiya göstərməyəcəkdir.

Mühitdə nə qədər çox mükafat olsa belə azdır. Övladınızdan tək bir tələb istəsəniz belə, sizə qaçraq gəldiyindən, yerdə və ya masada insanlarla birlikdə xoşbəxt olduğundan əmin olmalısınız. Övladınız seçdiyi əşyalara çata bilməlidir, hər hansı bir şey istəmədən öncə də ona verilən mükafatları ala bilməlidir. Mühit belə olduğu zaman, istək bildirmək təliminə başlaya bilərsiniz.

İstək bildirmə təliminə başlarkən, Həmzənin hal-hazırda deyə bildiyi sözlərə diqqətlə baxın, hansılarının istək bildirmədə ilk mərhələdə istifadəyə uyğun olduğunu analiz edin. Həmzə top və kitab kəlimələrini adlandıra bildiyi üçün istək bildirərkən istifadə üçün ilk öyrədəcəyiniz bu kəlimələr, mükafatları da aerobika topunun üzərində hoppanmaq və ya sevdiyi kitaba baxmaq olmalıdır. Azyaşlı uşaqların çoxu, başlanğıcda üç-beş sayda istək bildirməsi yetərlidir. Həmzə bir çox sözü deyə bildiyi üçün ona uyğun olaraq beş istək bildirməni hədəfləyərək işə başlamaq daha yaxşı olacaqdır.



Bir səfərdə sadəcə bir istək bildirməyə fokuslanmayın, çünki övladınız bu halı irəlidə həddən artıq ümumiləşdirəcəkdir. Misal üçün, övladınız "film" deyərək istək bildirməyi öyrənirsə və hər istək bildirdiyində qısa bir müddət film izləyirsə, nə vaxt film izləmək istəsə o zaman "film" deməsi gərəkdiyini öyrənəcəkdir. Amma eyni uşaq sadəcə bir istək bildirməni öyrənibsə, əslində meyvə suyu və ya top kimi başqa şeylər istədiyi zaman da yenə "film" deyərək bu istifadəni həddindən artıq ümumiləşdirə bilər. Bu səbəbdən bir səfərdə üç və ya beş istək bildirməyi öyrətmək mütləq şəkildə önəmlidir.

Uşaqlara istək bildirmə öyrədilərkən edilən başqa bir yanlış isə " daha" və "zəhmət olmasa" sözlərini istifadə etməkdir. Bunlar ümumiyyətlə, zamanından öncə öyrədilən sözlərdir. Uşaqlar, bir şeyi istəyirlərsə, onun "daha çoxu" üçün istək bildirəcəyini öyrənmiş olur, ancaq bu halda əşyanın özünü göstərərək istək bildirməzlər. "Zəhmət olmasa" və "daha çox" kimi mücərrəd qavramlar, ifadə edici dil problemləri yaşayan uşaq üçün heç də aydın olmaz. Bunun yerinə, göz önündə olan konkret bir əşya üçün istək bildirməyi öyrətməlisiniz, belə ki daha sonra əşya göz önündə olmasa da övladınız bu əşya üçün istək bildirəcəyini ümid edə bilək, misal üçün soyuducudakı dondurmanı istəməsi kimi. Həmzə əgər "daha çox..." deməyi öyrənirsə, yuxarıda ifadə etdiyim hal əsla gerçəkləşməyəcəkdir. Yəni, dondurma gözdən uzaq olduqda, Həmzənin "daha çoxunu" istədiyi şeyin nə olduğunu anlamaya çalışan yetkin heç bir fikrə sahib olmayacaqdır.

Bütün bunlara əlavə olaraq, ifadəedici dil bacarıqlarının inkişafında gerilik olan uşaqdan tam cümlələr quraraq istək bildirməsini gözləməməliyik. Əgər uşağınız peçenye istəyirsə və "peçenye" deyərək istək bildirirsə, ona peçenye verməyiniz uyğundur. Göstərəcəyi inkişafa, övladınızın cümlələrinin nə qədər uzun olduğuyla deyil, sözlərin və ya işarələrin istifadə edərək sizə neçə fərqli ehtiyac və istəyi çatdıra bildiyi ilə ölçülür.

Övladınızın sözləri bir araya gətirərək cümlə qurması, gözdən uzaq bir çox əşyanı istəməkdə də ustalaşmasının ardından gələcəkdir. Bu bacarıldıqdan sonra, əşyanı müəyyənləşdirməyə dəstək olan iki və ya üç sözlü cümlələrlə başlaya bilərsiniz. Misal üçün, qırmızı maşın, şokoladlı peçenye ola bilər. Sözlərin hər dəfəsində bir dənə olacaq şəkildə əlavə olunmalı və irəlidə uşağa istəyini aydınlaşdırmaqda kömək olacaq bir anlam qatmalıdır.

İndi nə edilməməsi gərəkdiyini bildiyinizə görə, Həmzəyə istək bildirməni öyrətməyə hazırsınız deməkdir. Top və kitab da daxil olmaq üzərə bir neçə hədəf istək bildirməni seçmişdiniz. Həmzənin bu sözləri söyləyə bildiyini bilirsiniz, ayrıca eyni əşyalar övladınızın mükafatı, yəni ona bu əşyalar üçün istək bildirməyi öyrətmək daha da asan olacaqdır. Başlanğıcda bacarıqların asan olması önəmlidir.

Top və kitaba əlavə olaraq, bir neçə qida da seçməlisiniz. Bir düşünsək, ilk istək bildirmələr üçün bir neçə qida ilə bir neçə fəaliyyət seçmək yaxşı olacaqdır. Amma beş qida seçməyin, övladınız gün boyunca fərqli fəaliyyətlərlə məşğul olmaq istəyəcəkdir. Siz də istək bildirməyi gün boyunca yayılacaq şəkildə öyrətməlisiniz. Əgər ilk istək bildirmələriniz qida olacaqsa, sadəcə yemək saatında tədris edə bilərsiniz.

Həmzənin mükafat siyahısına təkrar baxın və yeyilən mükafatların uyğunluğunu bir dəyərləndirmədən keçirin. İlk istək bildirmələrində çətin əşyalar-qızarmış kartof, ət və ya dondurma kimi şeylərdir. Çünki gün boyunca bunları isti və ya soyuq tutmaq gərəkdiyindən, bunları uşağa dərhal verə bilmək çətin olacaqdır. Jelibon və çips mükafat siyahısına yer aldğı və uşağa verilməsi də olduqca asan olduğundan, bu əşyaları seçmək məntiqli olacaqdır. Beşinci əşya olaraq da meyvə suyu qoyula bilər, çünki görünür ki, Həmzə sudan çox meyvə suyunu sevir.
Başlanğıcda hansı istək bildirmələrini seçmək gərəkdiyinə qərar verərkən, özünüzü dilini bilmədiyiniz xarici bir ölkədə xəyal edin. Ehtiyaclarınızı qarşılamaq üçün istəyəcəyiniz ilk sözlər hansılar olardı? Gərəkdiyində soruşa bilmək üçün tualet, su, qida, taksi və ya otel kimi kəlimələr öyrənmək istəyərdiniz. Ehtiyaclarını qarşılamaq üçün övladınız üçün də bənzər məqsədli sözlər keçərlidir. Beləliklə, hədəflədiyimiz ilk istək bildirmələr bunlardır: top, kitab, çips, meyvə suyu və konfet. Bunlar Həmzəyə istək bildirməyi öyrədəcəyimiz ilk sözlər olacaq.

Ağlınızda olması gərəkən, normal inkişaf edən bir uşağın bir neçə cəhddən sonra istəməyi öyrənəcəyi şeyi, inkişaf geriliyi olan uşaqların daha çox təkrarla öyrənəcəyidir. Sizin missiyanız bunu edə bilməsi üçün gün içində ona bir çox fürsət verməkdir. Əslində övladınıza istək bildirməsi üçün hər gün yüzlərlə fürsət verməyi hədəfləməlisiniz. Bunun anlamı, bir şey istəmək üçün övladınızın təkrar-təkrar motivasiya olacağı bir atmosfer yaratmaq məcburiyyətində olmağınızdır.

İstək bildirmə seansı etmək üçün, mükafatlardan birini alıb ( misal üçün çips) onu kiçik parçalara bölməlisiniz. On ədəd çipsin hər birini dörd parçaya , bir peçenyeni isə on parçaya bölünə bilər, beləliklə övladınıza toplamda 50 fürsət təqdim edərək sevdiyi iki şey üçün istək bildirməsi məqsədiylə bir seans hazırlamış olursunuz. İstək bildirmə seansı iki dəqiqə qədər qısa ola biləcəyi kimi, tamamlanması yarım saat kimi uzun da ola bilər. Bu zaman dilimi, tamamilə övladınızın istək bildirməsinə fokuslanmağınız yerdir. Seanslar eyni zamanda övladınızla müsbət ünsiyyət inkişaf etdirə bilməyiniz üçün sizə imkan yaradacaqdır.

İstək bildirmə seansına hazırlanmaq üçün beş ədəd mükafat toplamalı və seansın harada ediləcəyini müəyyən etməlisiniz. Masa və ya yer ola bilər, övladınız hansını seçərsə... Çipsləri və konfetləri şəffaf torbalara qoyun ki uşaq onları görə bilsin. Masada meyvə suyu qutusunun yanına kiçik bir stəkan qoyun. Əgər seçdiyiniz mükafatlar effektivdirsə və çalışma mühitinizi mükafatla uygunlşadırmısınızsa, övladınız ən çox sevdiyi beş şeyi sizin önünüzə düzülmüş gördüyü zaman sizin yanınıza gələcəkdir. Böyük ehtimal ilk hansını istədiyini işarə edərək göstərəcəkdir.

Övladınız topun üzərində hoppanmağa başlaya bilər və ya çips torbasını əlinizdən ala bilər. Övladınızı danışmağa məcbur etməyəcəyinizə görə, istəyini bildirməsini təmin etmək üçün yolu biraz uzatmağınız gərəkə bilər. Həmzə böyük ehtimalla istək bildirmə seansına könüllü qatılacaq, çünkü orada ən güclü mükafatları var. Topun üzərində hoppanmağa başlaya bilər. Siz o zaman əlini tutub onu daha da yüksəyə hoppanmasına kömək edin, yəni onu sevdiyi şeyi edin. Topun üzərində hoppanmaqdan zövq aldığını müşahidə etdiyiniz zaman ( sizi davam etməyə sövq edirsə, uzaqlaşdırmaq üçün itələmirsə) çox açıq şəkildə üç dəfə "top" sözünü söyləyin. Hər top deməinizdən sonra arada bir və ya iki saniyə gözləyin.
Topun üzərində hoppandığı üçün "hop" ilə "top" sözünü qarışdırma ehtimalı sizi narahat etməsin. Həmzənin onsuz da top deyə bilmə ehtimalına arxayınıq, bu sizin başlanğıc nöqtəsinizdir. Övladınız bir dəqiqəyə yaxın xoşbəxt bir şəkildə hoppandıqdan sonra, əllərinizlə
əllərini tutaraq ( onsuz da əlləriniz müddət ərzində uşağın əllərində olmalıdı) hoppanmasını yavaşladıb dayandırın. İndi mükafat dayandığına görə , tez bir şəkildə "top" sözünü ( 3 dəfə) yenidən təkrar edin və ardından onu hoppandırmağa başlayın.

Bu seans sırasında əgər Həmzə sizin dediyinizi təkrarlayırsa və ya "top" sözünü özözlüyündən deyirsə, dərhal onu ən yüksəyə, ən sürətli şəkildə hoppandırmağınız, ona təriflər yağdırmağınız, mükafatlar verməyiniz mütləqdir. Bunun üçün " Çox gözəl dedin!Top", " Top,top... Həmzə top dedi" kimi ifadələr istifadə etməlisiniz.

Başlarda tələblərin çox sadə və asan olması önəmlidir. Topu sıçratmasını istəyirsinizsə; "Top deməlisən, söylə top" kimi cümlələr istifadə etməyin. Sizə elə görünməsə də belə bir tələb çox böyükdür. Həmzə üçün bu cümləni işlətmək və başa düşmək imkansızdır. O bunu mükafatlandırımanın bitdiyi və çalışmanın başladığını şəklində qavrayacaqdır.

Həmzə, istək bildirmə seansında top sözünü deməyə bilər, bunun üzərində çox dayanmayın. Həmzənin topa qarşı marağı itənə qədər fəaliyyətinizi davam etdirin və ya başqa bir istək bildirməyə keçin. Bəzi uşaqlarda, təqdim olunan mükafat ən sevdiyidirsə (yəni birdən ona qədər dəyərləndirildikdə on bala uyğun gəlirsə) və başqa əşyaya keçəcəksinizsə, çalışma sahənizdən o mükafatı çıxartmağınıza ehtiyac ola bilər, çünki əşyanın orda olması diqqətini başqa yönə yönləndirməsinə mane ola bilər. İstək bildirmə senasları Həmzənin ac olduğu zamanlarda aparılmalıdır, beləliklə onun üçün hazırladığınız qidaları tələb etməyi istəyəcək qədər həvəsli olacaqdır.

Övladınızın mükafatlarından birini açıq fərqlə digərlərindən çox sevdiyi halda, istək bildirmə seansı zamanı mükafatları qarışıq istifadə etməyiniz üçün sizə bir üsul təqdim edək: Həmzə hələ topun üzərində oturursa ona bir çips verin və əşyanı üç dəfə adlandırın, ardından topu masanın yanına yaxınlaşdırın, belə etsəniz, digər əşyalarla çalışması üçün topdan enməsi gərəkməyəcəkdir. Bu halda top, Həmzə öyrənməyə davam edərkən, stul funksiyasını yerinə yetirəcəkdir. Nə olursa olsun əsla onu topdan endirib masaya çəkməyin, belə etsəniz yaratmağa çalışdığınız uyğunlaşdırmanın tamamını effektsiz hala gətirəcəksiniz. Əgər top onu həqiqətən motivasiya etdirirsə, ancaq sərgilədiyi motivasiya digər hədəf istək bildirmələri üçün keçərli deyilsə, o zaman digər əşyalarla çalışmalısınız. Daha öncə də qeyd etdiyimiz kimi istək bildirməyin öncəsində daima bir arzu olmalıdır.

Digər əşyalarla oxşar prossedura keçin. Həmzəyə şəkilli kitabına çatması üçün istək bildirməyi öyrədərkən , “kitab” sözü üzərinə fokuslanaraq çalışın. Həmzə bir neçə istək bildirmə bacarığı qazandıqdan sonra , onu 2 sözlü birləşmələrə yenə əsas sözün üzərindən irəlilədə bilərsiniz, misal üçün “Toplu sıçrat”, və ya “Topu yuvarla” və ya “ Heyvanlı kitab”və ya “Maşınlı kitab” kimi...

Həmzə bir neçə dəfə öz-özünə hədəf əşyalardan biri üçün istək bildirərsə, dərhal siyahınıza bir hədəf daha əlavə edə bilərsiniz. Əlavə hədəfləri müəyyən edərkən, istək bildirmələrinin tiplərini, qida, əşya və fəaliyyətlər olaraq qarışıq şəkildə olmasına diqqət göstərin və hər bir istək bildirmə üçün uşağın verəcəyi hədəf reaksiyanı sadəcə bir söz olacaq şəkildə seçin.
Amma işə yaramazsa? Ya ən sevdiyi mükafatlarla yüzlərlə cəhd etmisinizsə və Həmzə hələ də istək bildirməzsə? Belə şeylər ola bilər, amma başqa yolumuz yoxdur demək deyil. Bu dəfə sözləri uyğunlaşdırmağınız gərəkəcəkdir; bu mövzuda bir mütəxəssisə müraciət etməyinizi tövsiyyə edirik. İşarət dili asanlıqla ipucu verilə bilən bir strategiyadır və bəzən övladınızın bütün ehtiyacı sözlə onu istəmək arasında əlaqə qurmaqdan ibarətdir. Sevindirici hal ondadır ki, Həmzə kimi bir neçə söz deyə bilən uşaqlarda, diqqətli bir ünsiyyət qurma və tez-tez edilən istək bildirmə seansları mütləq əşyalar üçün istək bildirmə ilə yekunlaşmalıdır. Göz önündəki şeylər üçün istək bildirmədə 30-40 sözü istifadə etməyə başladıqdan sonra, gözdən uzaq olan əşyalar üçün istək bildirmə çalışmalarına başlaya bilərsiniz. Daima gözdən uzaq olan fəaliyyətləri seçərək bu çalışmanı başlatmaq daha yaxşı nəticə verəcəkdir. Misal üçün, yellləncəkdə olarkən “Yellə” demək kimi və ya “Aç”, “Götür” də işə yarayacaqdır.

Əşyaların görünmə dərəcəsini mərhələli şəkildə seyrəkləşldirdiyinizdən əmin olun. Yəni, Həmzə bir neçə dəfə çips istəmiş və hələ də çox çips istəyirsə, çips torbasını masanın altına və ya masadakı bir şeyin arxasına qoya bilərsiniz. Görmədiyi zaman Həmzə tələb etmirsə, dərhal ona çipsi göstərib təkrar yerinə qoya bilər, sözü söyləməsi üçün ipucu verə  bilər və ona çipsi verə bilərsiniz.

Həmzə ilə irəliləyiş əldə edib-etmədiyinizi necə anlaya bilərsiniz? Məlumat toplamaq çox önəmlidir, məlumat toplasanız nə qədər öyrəndiyini bilərsiniz. Həm onun, həm də sizin üçün bu möhtəşəm bir təcrübədir. Bəzən sanki heç yol qət etmədiyiniz düşündüyünüz zamanlar olacaq, amma məlumatlarınız əlinizdə olduqda Həmzə ilə birlikdə həqiqətən nə qədər irəliləyə bildiyinizi qavramış olursunuz. Tətbiq irəlilədikcə və daha çətin hala gəldikcə məlumat toplamağınıza daha çox məmnun olacaqsınız. Bunun üçün rəsmdəki kimi bir sayğac (zikrmatik) istifadə edə bilərsiniz.

Ofis ləvazimatları və dini məhsullar satan mağazalardan bir neçə ədəd sayğac (zikrmatik) ala bilərsiniz. Gün içində fərqli tədris hədəflərində istifadə etmək üçün əlinizin altında bir neçə ədəd olması daha məqsədyönlü olacaqdır. İstək bildirmə seanslarında, uşaq istək bildirməni edən zaman hər dəfəsində sayılmalıdır. İstək bildirməsi üçün sərf olunan zaman daxilində əldə etdiyiniz sayı yaza bilərsiniz. Daha sonra sayğacı ( zikrmatik) sıfırlayıb növbəti seans üçün hazır edə bilərsiniz.

İstək bildirməni saymağa alışdıqdan sonra, seans daxilində eyni zamanda iki sayğac (zikrmatik) istifadə edə bilərsiniz. Biriylə dəstək verilmiş istəkləri (yəni sizin çips dediyiniz, onun da təkrar edərək çips dediklərini) sayarkən, digər sayğac ilə müstəqil istəklərini saya bilərsiniz ( yəni siz şifahi ipucu vermədən çips dediklərini). İlk başlarda sərbəst edilən istəklərin ən az iki qatı ipucu verilərək həyat keçən istək bildirmələr olduğunu gösrəcəksiniz. (Misal üçün 2 dəfə "siz çips demədən" edilmiş cəhdə qarşılıq olaraq, 4 dəfə "öncə sizin çips dediyiniz" cəhd kimi...) Sayğac istifadəsi yerinə başqa bir seçim isə, hədəflənmiş beş istək bildirilməsi üçün hesablama vərəqəsi tutaraq istək gerçəkləşdiyi zaman işarə qoymaqdır. Övladınız bir əşya üçün çox sayda istək bildirir? Digərlərini seyrək istəyir? (Cədvəl 1 bunu anlamanıza kömək olacaqdır) . Hər iki yolla da programınızın necə işlədiyinə və ya işləmədiyinə dair əlinizdə məlumat olacaqdır. Əgər biraz rəqabətə meyllisinizsə, bur cür hesablamalar gündəlik və ya həftəlik istək bildirmələrinin sayını artırmağınızda təşviqedici olacaqdır. Yüksək nisbətdə istək bildirməyə keçmədən öncə övladınızın dil bazasının güclü olduğundan əmin olmalısınız.

| | | |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

Övladınızın “maraq” və ya hər hansı bir şeyin “ məlumatı” üçün istək bildirməsi illərinizi ala bilər, amma naticə olaraq övladınızı sizinlə daha çox ünsiyyətə keçəcəkdir. Ürəyinizi buz kimi saxlayın, cəsarətlə başlayın, çünki bu həm siz həm də övladınız üçün ömür boyu davam edəcək bir müddət olacaq.

Övladınız növbəti mərhələyə hazır olduğunda, əlbəttə daha mürəkkəb qarvramları öyrətməyi istəyəcəksiniz. Övladınızın özünün müəyyən etdiyi sürətə sadiq qalın. Beləliklə gücləndirmə yüksək səviyyədə qalmış olacaq. Övladınız həm göz önündəki, həm də gözdən uzaq əşyalar, fəaliyyətlər üçün çox sayda istək bildirməyə başladığı zaman, diqqət tələb edən istək bildiмələrə keçə bilərsiniz. Bunlar “Ey, buna bax!”, “Bax nə etdim” və ya “Burda bir pişik var” kimi cümlələrdir. Bunlar mürəkkəbdir çünki daha öncə öyrəndiyimiz kimi, bir çox söz və ya cümlənin istək bildirmə ola bilməsi üçün Həmzənin sizin diqqətinizi çəkməsi və bunu soruşa billməsi gərəkdir. Qidalar üçün motivasiya yaratmaq olduqca asan ikən, övladınızın sizin bir pişiyə baxmağınızı istəməsini təmin etmək daha çətindir.

Övladınızın öyrənəcəyi bir digər tələb növü isə məlumat qazanmaq üçün istək bildirməsidir. Məlumat əldə etmək üçün istək bildirmə “ayaqqabılarım hardadır?” , “çantada nə var?” və ya “bunu necə etmisən?” kimi suallardan ibarətdir. Məlumat əldə etmək üçün istək bildirmələri öyrətmək bəli çətindir, amma mümkünsüz deyil. Zəhmət olmasa yavaş-yavaş irəliləməyinizin önəmini unutmayın. Mükafatlarla birlikdə çalışıb , övladınızın bu mövzuda məlumat sahibi olmağı istəməsi üçün onu cəlb etməyə çalışın. Misal üçün, şəffaf olmayan torbanı ona göstərərək sallaya bilərsiniz. Uşaq içində nə var deyə torbaya baxmaq istədiyi zaman ( bu motivasiya olur) ipucu verərək Həmzəyə “Nə?” və ya “Nə var torbada?” deməsini təmin etməli, daha sonra da məlumatı ona çantanı verərək və mükafatını içindən almasına icazə verərək təqdim etməlisiniz. Övladınız ehtiyaclarını qarşılamaq üçün istək bildirməyə başladığı zaman , böyük ehtimalla davranışlarında da müsbət bir dəyişiklik görəcəksiniz. Görə bilmirsinizsə, siyahınıza geri qayıtmalı və ehtiyac duyduqlarını və istədiklərini daxil etmisiniz deyə kontrol etməli, mühitini mümkün olduqca zənginləşdirməlisiniz. Övladınız əvvəl-axır o nöqtəyə çatacaqdır.

İndi övladınızın ünsiyyət bacarıqlarını artıracaq digər şifahi bacarıqlara keçməyin zamanı gəldi. Bu ana qədər bəlkə çox irəli bir səviyyəyə gələ bilmədik amma düşünürəm ki,siz də övladınızı tək sözlü istək bildirmələri belə olsa ünsiyyət qurarkən gördüyünüzdə xoşbəxt olmusunuz.